1.10.4.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	640,491.0	640,491.0	
1.10.4.2	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti	11,047,464.0	11,047,464.0	
1.10.5	**Meşə təsərrüfatı**	**21,220,450.0**	**21,220,450.0**	
1.10.5.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti	21,220,450.0	21,220,450.0	
1.10.6	**Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi**	**285,715,458.0**	**38,949,656.0**	**246,765,802.0**
1.10.6.1	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	10,539,656.0	10,539,656.0	
1.10.6.2	“Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya	23,640,000.0	23,640,000.0	
1.10.6.3	Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı	4,370,000.0	4,370,000.0	
1.10.6.4	Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər	400,000.0	400,000.0	
1.10.6.5	Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar	246,765,802.0		246,765,802.0

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
1.10.7	**Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər**	**70,773,636.0**	**70,773,636.0**	
1.10.7.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması)	750,000.0	750,000.0	
1.10.7.2	Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" publik hüquqi şəxs	3,083,636.0	3,083,636.0	
1.10.7.3	Ətraf mühitin mühafizəsi sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər	43,000,000.0	43,000,000.0	
1.10.7.4	Ətraf mühitin mühafizəsi sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir	23,400,000.0	23,400,000.0	
1.10.7.5	Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	540,000.0	540,000.0	
1.11	**İqtisadi fəaliyyət**	**7,856,634,765.0**	**7,809,567,802.0**	**47,066,963.0**
1.11.1	**Nəqliyyat və rabitə**	**286,895,181.0**	**239,828,218.0**	**47,066,963.0**
1.11.1.1	"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya	5,900,000.0	5,900,000.0	
1.11.1.2	"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya	40,000,000.0	40,000,000.0	
1.11.1.3	"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya	20,000,000.0	20,000,000.0	
1.11.1.4	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi	38,488,000.0	38,488,000.0	
1.11.1.5	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	14,215,218.0	14,215,218.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
1.11.1.6	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	1,500,000.0	1,500,000.0	
1.11.1.7	Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxs (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi)	20,000,000.0	20,000,000.0	
1.11.1.8	Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi” publik hüquqi şəxs	40,000,000.0	40,000,000.0	
1.11.1.9	Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti	95,000.0	95,000.0	
1.11.1.10	“Radio-Televiziya Yayımı və Peyk Kommunikasiyasi” İstehsalat Birliyi	1,000,000.0	1,000,000.0	
1.11.1.11	Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi	33,630,000.0	33,630,000.0	
1.11.1.12	İctimai nəqliyyat sahəsində islahatlarla bağlı xərclər	25,000,000.0	25,000,000.0	
1.11.1.13	Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar	47,066,963.0		47,066,963.0
1.11.2	**İqtisadi və kommersiya fəaliyyəti**	**51,591,548.0**	**51,591,548.0**	
1.11.2.1	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	46,698,548.0	46,698,548.0	
1.11.2.2	İqtisadi və kommersiya fəaliyyəti üzrə maddi-texniki təminatın	4,893,000.0	4,893,000.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
	möhkəmləndirilməsi və əsaslı təmir			
1.11.3	**Tikinti və şəhərsalma**	**6,202,488,300.0**	**6,202,488,300.0**	
1.11.3.1	Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi	1,988,300.0	1,988,300.0	
1.11.3.2	Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)	2,700,000,000.0	2,700,000,000.0	
1.11.3.3	İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası	3,500,000,000.0	3,500,000,000.0	
1.11.3.4	Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması	500,000.0	500,000.0	
1.11.4	**Geodeziya və faydalı qazıntılar**	**4,495,132.0**	**4,495,132.0**	
1.11.4.1	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	182,338.0	182,338.0	
1.11.4.2	Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində “Geodeziya və Kartoqrafiya Agentliyi” publik hüquqi şəxs	2,973,853.0	2,973,853.0	
1.11.4.3	Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində “Geoloji Kəşfiyyat Agentliyi” publik hüquqi şəxs	1,338,941.0	1,338,941.0	
1.11.5	**Yanacaq və enerji kompleksi**	**373,800.0**	**373,800.0**	
1.11.5.1	Azərbaycan Respublikasının Energetika Nazirliyi	373,800.0	373,800.0	
1.11.6	**İqtisadi fəaliyyətlə bağlı digər xidmətlər**	**1,310,790,804.0**	**1,310,790,804.0**	
1.11.6.1	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi	29,860,010.0	29,860,010.0	
1.11.6.1.1	Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin və onların aparatlarının saxlanılması	8,000,000.0	8,000,000.0	
1.11.6.1.2	Lisenziya blanklarının çap edilməsi	10,010.0	10,010.0	
1.11.6.1.3	Digər tədbirlər	21,850,000.0	21,850,000.0	
1.11.6.2	Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin,	45,000,000.0	45,000,000.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
	biometrik pasportların çap edilməsi)			
1.11.6.3	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	27,639,600.0	27,639,600.0	
1.11.6.3.1	Xarici investisiya hesabına elektrik enerjisinin alqı-satqısı üzrə xüsusi ehtiyat hesabının formalaşdırılması	27,200,000.0	27,200,000.0	
1.11.6.3.2	Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması	439,600.0	439,600.0	
1.11.6.4	Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması	31,250,000.0	31,250,000.0	
1.11.6.5	Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər	13,375,000.0	13,375,000.0	
1.11.6.6	Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu	100,000,000.0	100,000,000.0	
1.11.6.6.1	Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi)	85,000,000.0	85,000,000.0	
1.11.6.6.2	Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi	15,000,000.0	15,000,000.0	
1.11.6.7	Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu	10,300,000.0	10,300,000.0	
1.11.6.8	İqtisadi fəaliyyət sahələri üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	720,000.0	720,000.0	
1.11.6.9	Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxs	360,969.0	360,969.0	
1.11.6.10	“Azərbaycan Respublikasının Dövlət	8,600,000.0	8,600,000.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
	Ehtiyatları Agentliyi” publik hüquqi şəxs			
1.11.6.11	“İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi” publik hüquqi şəxs	2,737,354.0	2,737,354.0	
1.11.6.12	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO” publik hüquqi şəxs	9,600,000.0	9,600,000.0	
1.11.6.13	Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu” publik hüquqi şəxs	2,500,000.0	2,500,000.0	
1.11.6.14	Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində “Azərbaycan Metrologiya İnstitutu” publik hüquqi şəxs	850,000.0	850,000.0	
1.11.6.15	“Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti” publik hüquqi şəxs	6,400,000.0	6,400,000.0	
1.11.6.16	“Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxs	5,074,388.0	5,074,388.0	
1.11.6.17	“Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxs	3,350,131.0	3,350,131.0	
1.11.6.18	“Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxs	2,456,472.0	2,456,472.0	
1.11.6.19	“Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxs	7,289,485.0	7,289,485.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
1.11.6.20	“Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxs	2,260,010.0	2,260,010.0	
1.11.6.21	Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya	47,024,628.0	47,024,628.0	
1.11.6.22	İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı	823,000,000.0	823,000,000.0	
1.11.6.23	Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı	40,000.0	40,000.0	
1.11.6.24	İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi	21,102,757.0	21,102,757.0	
1.11.6.25	Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı	100,000,000.0	100,000,000.0	
1.11.6.26	İqtisadi fəaliyyət sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər	10,000,000.0	10,000,000.0	
1.12	**Əsas bölmələrə aid edilməyən xərclər**	**1,752,532,897.0**	**1,738,736,537.0**	**13,796,360.0**
1.12.1	**Ehtiyat fondları**	**410,000,000.0**	**410,000,000.0**	
1.12.1.1	Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu	300,000,000.0	300,000,000.0	
1.12.1.2	Dövlət büdcəsinin Ehtiyat Fondu	110,000,000.0	110,000,000.0	
1.12.2	**Məqsədli büdcə fondları**	**472,343,700.0**	**472,343,700.0**	
1.12.2.1	“Avtomobil yolları” məqsədli büdcə fondu	250,000,000.0	250,000,000.0	
1.12.2.2	Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu	4,500,000.0	4,500,000.0	
1.12.2.3	Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu	5,843,700.0	5,843,700.0	
1.12.2.4	Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu	3,000,000.0	3,000,000.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
1.12.2.5	Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları	1,000,000.0	1,000,000.0	
1.12.2.6	Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu	1,000,000.0	1,000,000.0	
1.12.2.7	Nəqliyyat vasitələrinin utilizasiyası fondu	52,000,000.0	52,000,000.0	
1.12.2.8	“İctimai nəqliyyat” məqsədli büdcə fondu	155,000,000.0	155,000,000.0	
1.12.3	**Valyuta konvertasiyası**	**4,000,000.0**	**4,000,000.0**	
1.12.3.1	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (valyuta konvertasiyası)	4,000,000.0	4,000,000.0	
1.12.4	**Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət**	**866,189,197.0**	**852,392,837.0**	**13,796,360.0**
1.12.4.1	Dövlət ehtiyatlarının yaradılması	35,000,000.0	35,000,000.0	
1.12.4.1.1	Dövlət ehtiyatlarının yaradılması və idarə edilməsi	35,000,000.0	35,000,000.0	
1.12.4.2	Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər	20,000,000.0	20,000,000.0	
1.12.4.3	**Sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər**	**811,189,197.0**	**797,392,837.0**	**13,796,360.0**
1.12.4.3.1	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	1,440,000.0	1,440,000.0	
1.12.4.3.2	Azərbaycan Respublikasının maraqlarının beynəlxalq hüquq çərçivəsində qorunması, beynəlxalq məhkəmələrdə təmsil edilməsi və həmin məhkəmələrin qərarlarının icrası ilə bağlı xərclər	39,900,000.0	39,900,000.0	
1.12.4.3.3	Dövlət təltiflərinin hazırlanması	3,369,573.0	3,369,573.0	
1.12.4.3.4	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	12,962,264.0	12,962,264.0	
1.12.4.3.4.1	Xüsusi müdafiə olunan və bu qəbildən olan digər sənədlərin çap edilməsi və onların dövriyyəsinə nəzarət	6,000,000.0	6,000,000.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
	sisteminin tətbiqi ilə bağlı xərclər			
1.12.4.3.4.2	İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması	6,772,264.0	6,772,264.0	
1.12.4.3.4.3	Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi	190,000.0	190,000.0	
1.12.4.3.5	İşğaldan azad edilmiş ərazilərdə ödənilmiş kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı göstərilməsi	48,920,000.0	48,920,000.0	
1.12.4.3.6	Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri	100,000,000.0	100,000,000.0	
1.12.4.3.7	Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası	26,200,000.0	26,200,000.0	
1.12.4.3.8	Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər	9,000,000.0	9,000,000.0	
1.12.4.3.9	Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər	39,501,000.0	39,501,000.0	
1.12.4.3.10	Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi	30,000,000.0	30,000,000.0	
1.12.4.3.11	İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq	5,000,000.0	5,000,000.0	

Sıra №-si	Xərclərin istiqaməti	Xərclərin məbləği	o cümlədən:	
			Mərkəzləşdirilmiş xərclər	Yerli xərclər
	strukturlarının yaradılması və onların saxlanılması			
1.12.4.3.12	Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi	481,100,000.0	481,100,000.0	
1.12.4.3.13	Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər	13,796,360.0		13,796,360.0

2. Müəyyən edilsin ki:

2.1. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununun 2.13-cü, 2.19-cu, 3-cü maddəsinin birinci abzasında, 3.1-ci, 3.1.2-ci, 3.2-ci, 5.1-ci, 5.2-ci (hər iki halda), 7.12.2.1-ci, 9-cu (hər iki halda), 10-cu və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 2.13-cü, 5.2-ci (birinci halda) və 16-cı maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

2.4. həmin Qanunun 2.19-cu maddəsində “məqsədli büdcə fondları” dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu, Nəqliyyat vasitələrinin utilizasiyası fondu nəzərdə tutulur;

2.5. həmin Qanunun 3.1.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 3-cü maddəsinin birinci abzasında, 5.1-ci və 9-cu (hər iki halda) maddələrində “məqsədli büdcə fondları” dedikdə “Avtomobil yolları” məqsədli büdcə fondu və “İctimai nəqliyyat” məqsədli büdcə fondu nəzərdə tutulur;

2.7. həmin Qanunun 3.1-ci maddəsində “məqsədli büdcə fondu” dedikdə “Avtomobil yolları” məqsədli büdcə fondu nəzərdə tutulur;

2.8. həmin Qanunun 3.2-ci maddəsində “məqsədli büdcə fondu” dedikdə “İctimai nəqliyyat” məqsədli büdcə fondu nəzərdə tutulur;

2.9. həmin Qanunun 5.2-ci (ikinci halda) və 7.12.2.1-ci maddələrində “məqsədli büdcə fondları” dedikdə “Avtomobil yolları” məqsədli büdcə fondu, “İctimai nəqliyyat” məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu, Nəqliyyat vasitələrinin utilizasiyası fondu nəzərdə tutulur;

2.10. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) və 1.11.3.3-cü (İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası)

abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

3.2.1. bu Fərmanın 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.2.2. bu Fərmanın 1.1.1.56-cı (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.1.4-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.3.6.3-cü (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.7.5.19-cu (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.9.1.5-ci (Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər), 1.10.7.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir) və 1.12.4.1.1-ci (Dövlət ehtiyatlarının yaradılması və idarə edilməsi) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında həyata keçirsin;

3.3. 1.12.1.2-ci (Dövlət büdcəsinin Ehtiyat Fondu) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.4. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında:

3.4.1. bu Fərmanın 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı), 1.1.2.2-ci (Beynəlxalq və regional maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak), 1.1.2.4-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.2.5.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər), 1.1.3.1-ci (Xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımlar), 1.1.6.2-ci (Yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya) və 1.1.6.3-cü (Yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya) abzaslarında nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

3.4.2. bu Fərmanın 1.1.2.3-cü (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) abzasında nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə müvafiq xarici valyutalarda bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

3.4.3. bu Fərmanın 1.1.4.21-ci (Elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir) və 1.11.6.4-cü (Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.5. bu Fərmanın 1.11.6.25-ci (Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında həyata keçirsin;

3.6. bu Fərmanın 1.12.4.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan

Respublikası Fövqəladə Hallar Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında həyata keçirsin;

3.7. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən laboratoriyaların fəaliyyətinin təmin edilməsi işlərini dövlət sifarişi kimi üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.8. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən şəhərsalma işlərini dövlət sifarişi kimi üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.9. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2026-cı ilin dövlət büdcəsinə tutulması vergi orqanlarının səlahiyyətlərinə aid edilmiş vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.2. 2026-cı ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.3. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.3.1. bu Fərmanın 1.5.5.7-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.11.1.12-ci (İctimai nəqliyyat sahəsində islahatlarla bağlı xərclər), 1.11.6.22-ci (İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı), 1.12.4.3.11-ci (İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması) və 1.12.4.3.12-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.3.2. bu Fərmanın 1.1.4.20.2-ci, 1.5.5.5.2-ci və 1.7.5.18.2-ci (Digər tədbirlər) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.3.3. bu Fərmanın 1.12.2.1-ci (“Avtomobil yolları” məqsədli büdcə fondu), 1.12.2.2-ci (Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu), 1.12.2.3-cü (Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu), 1.12.2.4-cü (Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu), 1.12.2.5-ci (Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları), 1.12.2.6-cı (Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu), 1.12.2.7-ci (Nəqliyyat vasitələrinin utilizasiyası fondu) və 1.12.2.8-ci (“İctimai nəqliyyat” məqsədli büdcə fondu) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.3.4. bu Fərmanın 1.12.4.3.10-cu (Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifləri əsasında həyata keçirsin;

4.4. bu Fərmanın 1.1.1.55-ci (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial

ödənişlər və digər sosial tədbirlər), 1.1.4.20.1-ci (Əməyin ödənişi xərclərinin tənzimlənməsi və sosial ödənişlər), 1.2.1.3-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.3.6.2-ci (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.4.8.8-ci (Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər), 1.4.8.9-cu (Təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.4.8.10-cu (Təhsil sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.5.5.5.1-ci (Əməyin ödənişi xərclərinin tənzimlənməsi və sosial ödənişlər), 1.5.5.8-ci (Səhiyyə sahəsinə aid olan digər tədbirlər), 1.6.3.5-ci (Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.7.5.8-ci (Siyasi partiyalara maliyyə yardımı), 1.7.5.18.1-ci (Əməyin ödənişi xərclərinin tənzimlənməsi və sosial ödənişlər), 1.8.4.5-ci (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.8.4.6-cı (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.9.1.6-cı (Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.9.5.1-ci (Kənd təsərrüfatı sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.10.7.3-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.11.1.11-ci (Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi), 1.11.2.2-ci (İqtisadi və kommersiya fəaliyyəti üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.11.6.23-cü (Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı), 1.11.6.24-cü (İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.11.6.26-cı (İqtisadi fəaliyyət sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər), 1.12.4.3.2-ci (Azərbaycan Respublikasının maraqlarının beynəlxalq hüquq çərçivəsində qorunması, beynəlxalq məhkəmələrdə təmsil edilməsi və həmin məhkəmələrin qərarlarının icrası ilə bağlı xərclər), 1.12.4.3.3-cü (Dövlət təltiflərinin hazırlanması), 1.12.4.3.5-ci (İşğaldan azad edilmiş ərazilərdə ödənilmiş kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı göstərilməsi), 1.12.4.3.7-ci (Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası) və 1.12.4.3.9-cu (Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

4.5. bu Fərmanın 1.1.1.57-ci, 1.1.4.22-ci, 1.2.5.3-cü, 1.3.6.4-cü, 1.4.8.11-ci, 1.5.5.9-cu, 1.7.5.20-ci, 1.9.5.2-ci, 1.10.7.5-ci, 1.11.6.8-ci və 1.12.4.3.6-cı abzaslarında nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini bir ay müddətində təmin etsin və həmin smetada dəyişiklikləri il ərzində həyata keçirsin;

4.6. bu Fərmanın 3.4.2-ci bəndində nəzərdə tutulan vəsaitin bölgüsü üzrə büdcə xərclərinin iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraflar, maddə və yarımmaddələri arasında bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təklifləri əsasında həyata keçirsin;

4.7. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

4.8. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununun 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.9. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini “Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla 2026-cı il yanvarın 10-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla:

6.2.1. bu Fərmanın 1.11.6.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin və onların aparatlarının saxlanılması) abzasında nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

6.2.2. bu Fərmanın 1.11.6.5-ci (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.2.3. bu Fərmanın 1.12.4.3.8-ci (Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.3. “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 292-VIIQ nömrəli Qanununundan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla:

7.1. bu Fərmanın 1.1.2.5.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin;

7.2. bu Fərmanın 1.1.3.2-ci (Xarici yardımlar və bununla bağlı digər tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

8. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmanın 1.6.3.6-cı (Paralimpiya, abilimpiya, deflimpiya və xüsusi olimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

9. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.2-ci (Qeyri-dövlət təşkilatlarına maliyyə yardımı) abzasında nəzərdə tutulan vəsaitin

aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və bölgüyə uyğun ödənişləri təmin etsin.

10. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bu Fərmanın 1.10.6.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.6.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin.

11. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Fərmanın 1.11.3.4-cü (Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin.

12. Azərbaycan Respublikasının İqtisadiyyat, Gənclər və İdman, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Azərbaycan Respublikasının Diasporla İş üzrə, Dini Qurumlarla İş üzrə dövlət komitələri, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi, Azərbaycan Dövlət Su Ehtiyatları, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət dövlət agentlikləri, Bakı Şəhər İcra Hakimiyyəti aidiyyəti üzrə bu Fərmanın 1.1.4.16-cı, 1.1.4.17-ci, 1.1.4.18-ci, 1.4.4.6-cı, 1.4.5.11-ci, 1.4.8.7-ci, 1.5.2.10-cu, 1.6.2.2-ci, 1.7.5.13-cü, 1.7.5.16-cı, 1.8.2.4-cü, 1.8.2.5-ci, 1.9.3.1-ci, 1.9.4.1-ci, 1.10.7.2-ci, 1.11.1.7-ci, 1.11.1.8-ci, 1.11.4.2-ci, 1.11.4.3-cü, 1.11.6.9-cu, 1.11.6.12-ci, 1.11.6.13-cü, 1.11.6.14-cü abzaslarında nəzərdə tutulan publik hüquqi şəxslər ilə, bu Fərmanın 1.1.4.12-ci, 1.1.4.13-cü, 1.1.4.14-cü, 1.1.4.15-ci, 1.2.5.4-cü, 1.4.8.6-cı, 1.7.1.9-cu, 1.7.1.10-cu, 1.7.1.11-ci, 1.7.2.5-ci, 1.7.2.6-cı, 1.7.5.12-ci, 1.7.5.14-cü, 1.7.5.15-ci, 1.8.4.2-ci, 1.8.4.3-cü, 1.8.4.4-cü, 1.11.6.10-cu, 1.11.6.11-ci, 1.11.6.15-ci, 1.11.6.16-cı, 1.11.6.17-ci, 1.11.6.18-ci, 1.11.6.19-cu və 1.11.6.20-ci abzaslarında nəzərdə tutulan publik hüquqi şəxslər isə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə bu abzaslarda nəzərdə tutulmuş vəsait daxilində, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası”na uyğun olaraq, 15 (on beş) gün müddətində dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsini təmin edən ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi üçün tədbirlər görsünlər.

13. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşdirilən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

14. Azərbaycan Respublikasında iqtisadiyyatın qeyri-neft özəl sektorunda inkişafın dövlətin iqtisadi siyasətinin əsas istiqaməti olduğunu nəzərə alaraq, bütün dövlət orqanlarına (qurumlarına) tapşırılsın ki, sahibkarlıq fəaliyyəti sahəsində süni maneələrin tam aradan qaldırılması, bu sahədə vəzifəsindən sui-istifadə edən və ya qanun pozuntusuna yol verən şəxslərin Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilmələrinə dair tədbirlər görsünlər.

15. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 605 (Cild I); 2024, № 12 (II kitab), maddə 1363; 2025, № 1, maddə 24, № 8, maddə 751) 2.7-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“2.7. həmin Qanunun 18.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

2.7.1. bu Fərmanın 2.7.2-ci yarımbəndində nəzərdə tutulan hallar istisna olmaqla, funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında edilən digər dəyişikliklərə münasibətdə – Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

2.7.2. dövlət büdcəsindən maliyyələşən təşkilatlarda əməyin ödənişi, sosial ödənişlər və dövlət icbari şəxsi sığortası üzrə xərclərin büdcə ili ərzində çatışmayan hissəsinin qarşılanması məqsədilə həmin təşkilatın təsdiq olunmuş büdcə ayırmaları həddində funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında edilən dəyişikliklərə münasibətdə – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;”.

16. “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1947 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1457 (Cild I) 4.6-cı bəndində “əmək qabiliyyətini müvəqqəti itirməyə və dəfn üçün müavinətlər, əmək zədəsi və ya peşə xəstəliyi üzrə ödənişlər və digər sosial ödənişlər” sözləri “sosial ödənişlər və dövlət icbari şəxsi sığortası” sözləri ilə əvəz edilsin.

17. Bu Fərmanın 1-ci hissəsi 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2025-ci il